# "Kəlağayı Günləri - 2025" layihəsi çərçivəsində ilk tədbir

**"Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin təşkilatçılığı ilə "Kəlağayı ev-muzeyi"ndə "Kəlağayı Günləri - 2025" layihəsinin ilk tədbiri keçirilib.**

İctimai Birlikdən Azərtac-a bildirilib ki, əvvəlcə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən İctimai Birliyin sədri, "Kəlağayı ev-muzeyi"nin direktoru Güllü Eldar Tomarlı layihə barədə geniş məlumat verib. O bildirib ki, milli dəyər olan kəlağayının təbliği illərdir davam etdirilir.

Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov milli dəyərlərimizin qorunması və gələcək nəsillərə ötürülməsinin vacibliyini diqqətə çatdırıb.

Araşdırmaçı-yazar, publisist Vaqif Osmanlı vurğulayıb ki, kəlağayı nənələrdən miras qalmış mənəvi əmanətdir və Güllü Eldar Tomarlının mənəvi dəstəyi ilə kəlağayı mövzusunda bir sıra kitablar və mahnılar ərsəyə gəlib.

Tədbirdə Mirvarid Dilbazi Poeziya Məclisinin üzvləri - Əmək qəhrəmanı Tərlan Musayeva, Fəxrəddin Mahmudov, Eyzanat Osmanova, şəhid Zaur İsmayılzadənin anası Sevil Hüseynova, Polad Ağa və digərləri Güllü Eldar Tomarlının Vətən, kəlağayı və papaq sevgisi ilə reallaşdırdığı tədbirlərdən söhbət açıblar.

Bədii hissədə gənc aşıq Dərya Nəsibova musiqi nömrələri ilə çıxış edib.

Azərbaycan.- 2025.- 4 noyabr (№235).- S.11.